# Pandemiya: *Azərbaycanda vəziyyət nəzarət altındadır*



***Dünyanın bütün ölkələri yeni koronavirus (COVID-19) pandemiyasının təsiri altında qalmaqda davam edir. Bir sıra ölkələrdə məhdudlaşdırıcı addımlar yumsaldılsa da, vəziyyətin tam normallaşması barədə danışmaq hələ çox tezdir. Azərbaycanda da koronavirusla mübarizə ciddi şəkildə davam etdirilir və əhalinin sağlamlığının qorunması, eləcə də sanitar-epidemioloji vəziyyətin nəzarət altında saxlanması üçün əməli addımlar atılır. Məhz Prezident İlham Əliyevin qabaqlayıcı və düşünülmüş siyasəti sayəsində Azərbaycanın koronavirusun ağır zərbələrindən yayınması məsələsində digər ölkələrdən müsbət mənada fərqlənməyi bacardı. Lakin bu, bir həqiqətdir ki, COVID-19 ilə mübarizədə qazanılmış uğurun davamlı olması hər birimizdən asılıdır.***

Azərbaycan hökuməti əhalinin sağlamlığının qorunması və pandemiyanın daha geniş yayılmasının qarşısının alınması istiqamətində mühüm addımlar atmaqda davam edir. Xüsusilə qeyd etmək lazımdır ki, xəstəliyin mənfi proseslərinin milli iqtisadiyyatımıza təsirlərini azaltmaq, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan sahibkarlara və muzdlu işçilərə dəstək vermək, iş yerlərini qorumaq, əhalinin sosial müdafiəsini təmin etmək, həmçinin post-pandemiya dövründə yeni iqtisadi inkişaf modelinin tətbiqi üçün real zəmin hazırlamaq məqsədilə operativ addımlar atılılır. Ən əsası, Prezident İlham Əliyevin xüsusi sərəncamı ilə Nazirlər Kabinetinə dövlət büdcəsindən vəsait ayrılması sayəsində koronavirus pandemiyası və qlobal enerji, eləcə də səhm bazarlarında baş verən böhranla əlaqədar Azərbaycan iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq və sahibkarlıq subyektlərinə mənfi təsirin azaldılması tədbirlərinin maliyyələşdirilməsi prosesi həyata keçirilir. Bundan başqa, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və onunla mübarizə istiqamətində səhiyyə tədbirlərinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılmışdır. Əhali və ayrı-ayrı təşkilatlar bu təşəbbüs ətrafında səfərbər olaraq həmrəylik nümayiş etdirmiş və koronavirusla mübarizə istiqamətindəki işlərə öz vətəndaş töhfəsini vermişdir. İyunun 9-da üç modul tipli xəstəxananın açılışında iştirak edən Prezident İlham Əliyev vətəndaşların və sahibkarların Koronavirusla Mübarizəyə Dəstək Fonduna könüllü şəkildə vəsait verməlarini belə qiymətləndirmişdir: “Bu, bir daha onu göstərir ki, xalqımız çətin dövrdə birləşə, həmrəylik və birlik göstərə bilir”.

Ümumiyyətlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə koronavirus pandemiyasına qarşı genişmiqyaslı tədbirlər görülür, məşğulluğa və sosial rifaha dəstək məqsədilə fəal siyasət aparılır. Qeyd etmək vacibdir ki, COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar tətbiq olunan bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, sağlamlığının qorunması məqsədilə həyata keçirilir. Bütün bunlar Azərbaycan dövlətinin öz vətəndaşına qayğısının daha bir bariz nümunəsidir. Bunlarla yanaşı, Prezident İlham Əliyevin təşəbbüsü ilə modul tipli yeni xəstəxanaların inşa edilərək istifadəyə verilməsi və digər müasir tibb müəssisələrinin koronavirus xəstələrinin müalicəsi üçün ayrılması əhalinin sağlamlığının qorunmasına yönəlmiş addım olmaqla yanaşı, COVID-19 ilə səmərəli mübarizə aparılmasında da böyük rol oynayır. Burada əsas məqsəd koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi əlaqələndirməni təmin etməkdir. Xatırladaq ki, ilk belə xəstəxana mayın 7-də paytaxtda istifadəyə verilmişdir. Daha altı kompleksin isə bölgələrdə inşa edilərək istifadəyə verilməsi nəzərdə tutulur. Eyni zamanda, virusla mübarizə sahəsində ölkədəki tələbatı qarşılamaq məqsədilə qoruyucu maska və digər zəruri tibbi ləvazimatların istehsalına başlanılması, əlbəttə ki, ağır şəraitdə dövlət başçısının çevik qərarlar qəbul etmək bacarığını bir daha nümayiş etdirir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və digər beynəlxalq qurumlarla COVID-19 virusu ilə mübarizə çərçivəsində sıx əməkdaşlıq qurması da Azərbaycanın qlobal bəla ilə mübarizədə güclü iradəyə malik olmasını təsdiqləyir.

Xatırladaq ki, koronavirus pandemiyası başlamazdan öncə Prezident İlham Əliyevin təşəbbüsü ilə dövlət orqanlarının fəaliyyətində informasiya texnologiyalarının tətbiqinin təmin edilməsi, dövlət xidmətləri sahəsində mərkəzləşdirilmiş elektron məlumat sisteminin yaradılması virusun geniş yayılmasının qarşısının alınmasında böyük rol oynadı. İnsanlar evdən çıxmadan bir sıra sosial və iqtisadi xarakterli problemlərini həll etmək imkanını qazandılar. Bu gün heç kimə sirr deyil ki, ölkə başçısının vaxtında apardığı islahatlar və tədbirlər fors-major vəziyyətdə öz əhəmiyyətini göstərdi. Önəmli məqamlardan biri budur ki, koronavirus pandemiyasına qarşı mübarizə sahəsində elan edilmiş xüsusi karantin rejimi dövründə çətin vəziyyətdə olan şəxslərə sosial xidmət göstərilməsi və müvafiq yardım edilməsi istiqamətində tədbirlər həyata keçirildi. İyunun 9-da modul tipli üç xəstəxananın açılışında iştirak edən Prezident İlham Əliyev ictimai təşkilatların, ilk növbədə, Heydər Əliyev Fondunun və digər ictimai təşkilatların, sahibkarların bu dövrdə maddi vəziyyəti aşağı olan insanlara humanitar yardım də göstərdiklərini və bu prosesin davam etdiyini vurğulayaraq əlavə etmişdir ki, bu mübarizədə, əlbəttə ki, əsas yükün Azərbaycan dövlətinin üzərinə düşdüyünü hamı bilir. Azərbaycan dövləti də əlindən gələni edir ki, ölkə bu vəziyyətdən az itkilərlə çıxa bilsin.

Azərbaycan koronavirusa yoluxan bütün xəstələrin tibbi müəssisələrdə müalicə aldığı nadir ölkələrdəndir. Ölkə başçısı çıxışında bununla bağlı demişdir ki, dünya praktikası tam başqadır: “Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər. Əlbəttə ki, bu, onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir”.

Bütün bunlar bir daha göstərir ki, Azərbaycanda dövlət siyasətinin mərkəzində əhalinin rifahı, vətəndaşın sağlamlığının qorunması dayanır. Vətəndaşlarımızın sağlamlığı və təhlükəsizliyi Prezident İlham Əliyev üçün prioritet təşkil edir və dövlət başçısının atdığı hər bir addım, imzaladığı hər bir sərəncam hər bir azərbaycanlının sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılmasına istiqamətlənmişdir. Azərbaycan vətəndaşlarının dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunması üçün hər bir şəraitin yaradıldığını vurğulayan Prezident İlham Əliyev hesab etdiyini açıqlamışdır ki, bu günə qədər görülmüş işlər və işlərin nəticələri məhz bu siyasətin təzahürünü əks etdirir: “Təsadüfi deyil ki, beynəlxalq aləmdə Azərbaycanın koronavirusla bağlı



mübarizə metodları təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bu sahədə nümunəvi ölkə adlandırıb, özü də bir neçə dəfə. Həm pandemiyanın ilk mərhələsində ki, biz operativ tədbirlər gördük, bütün lazımi məhdudlaşdırıcı addımları atdıq, həm də ondan sonrakı dövrdə və bu yaxınlarda yenə də Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri Azərbaycanda görülmüş işləri çox yüksək qiymətləndirmişlər”.

Bir sözlə, Prezident İlham Əliyevin COVID -19 pandemiyasına qarşı müəyyənləşdirdiyi mübarizə strategiyası sayəsində Azərbaycan bu qlobal bəlanın doğurduğu itkiləri minimuma endirməyi bacaran dövlətlər siyahısında yer almağa müvəffəq oldu. Digər ölkələrlə müqayisədə Azərbaycanın bu sahədə də öz modelini nümayiş etdirdiyini müşahidə edirik və ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi altında bütün hədəflərə ardıcıllıqla, məqsədyönlü şəkildə çata bilmişdir. Ancaq unutmaq lazım deyil ki, koronavirus xəstəliyi uzunmüddətli prosesdir. Vətəndaşlar şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməli, ictimai yerlərdə kənar şəxslərlə minimum əlaqədə olmalı, mövcud preventiv tədbirlərin şərtlərinə riayət etməlidir. Gigiyena qaydalarına ciddi riayət edilməsə, pandemiyanın özü ilə bərabər daha böyük təhlükələr gətirə bilər. Buna görə də, Prezident İlham Əliyev qapalı şəraitdə hər kəsin mütləq maskadan istifadə etməsinin vacibliyini vurğulamış və hər kəsin məsafə saxlamasını və şəxsi gigiyenayasına fikir verməsini tövsiyə etmişdir: “Çünki cəmi bu üç amil, - bunu həkimlər, müxtəlif ictimai xadimlər bəlkə də min dəfə deyiblər, - gərək nəzərə alınsın: tibbi maska, bir yarım-iki metr məsafə və dezinfeksiya vasitələri. Bu amillər insanları həkimlərin yekdil rəyinə görə, 95 faiz qoruyur. Ona görə vətəndaşlardan artıq dərəcədə xahiş edirəm ki, bu çox sadə qaydalara əməl etsinlər və bilsinlər ki, koronavirus yoxa çıxmayıb”.

*Səbuhi MƏMMƏDOV,*
*“Xalq qəzeti”*

Xalq qəzeti 2020.- 17 iyun.- S.4.